**PARLAMENT SEÇKİLƏRİ - 2015**

# Parlament seçkiləri beynəlxalq meyarlara uyğun keçirildi



**Azərbaycanda seçkilərin demokratik şəraitdə keçirilməsi ölkədə bu sahədə yaradılmış əlverişli mühitin nəticəsidir. Çünki seçkilərin şəffaf, demokratik qaydada keçirilməsi Azərbaycan dövlətinin prioritet istiqamətlərindən biri kimi daim diqqət mərkəzində saxlanılır. Müstəqilliyimizin bərpasından başlayaraq, indiyədək keçirilən bütün seçkilər zamanı qazanılmış təcrübə əhalinin seçkilərdə daha da fəal mövqe nümayiş etdirməsinə gətirib çıxarıb.**







Noyabrın 1-də V çağırış Milli Məclisə keçirilən parlament seçkilərində seçici fəallığının bir daha şahidi olduq. 29 saylı Səbail Dairə Seçki Komissiyasının (DSK) sədri Cahangir Məmmədov bildirdi ki, 38580 seçicini əhatə edən 30 seçki məntəqəsi hazırda seçicilərin ixtiyarındadır.

29 saylı Səbail Dairə Seçki Komissiyasının 13 saylı məntəqə seçki komissiyasının sədri Rafiq Abışov bildirdi ki, hələ saat on olmasına baxmayaraq seçici aktivliyi müşahidə olunur.

Yerli müşahidəçilərdən Mətanət İbrahimova bildirdi ki, seçkilər çox rahat keçir, heç bir qanun pozuntusuna yol verilməyib. Seçicilər normal şəraitdə, heç bir müdaxilə olmadan səslərini istədikləri namizədə verirlər.

Xarici müşahidəçilərdən Kamboca Xalq Partiyasının nümayəndələri Tekret Samraç və Kut Çandara bildirdilər ki, parlament seçkiləri yüksək səviyyədə davam edir. İnsanlar seçkidə fəallıq göstərirlər. Onlar artıq hansı namizədə səs verəcəklərini bilirlər. Seçicilərin səs verməsi üçün gözəl şərait yaradılıb və hər şey öz qaydasındadır. "Çox diqqətəlayiq haldır ki, Azərbaycanda səsvermə prosesi Avropanın bir çox ölkələrinə nümunə göstəriləcək şəkildə, veb-kameraların nəzarəti altında aparılır."

Seçicilərdən Elnur Quluyev, Ruslan Abışov, Sərxan Əliyev azad, demokratik şəraitdə səs verə bildikləri üçün dövlət başçısı İlham Əliyevə öz minnətdarlıqlarını bildirdilər. Qeyd etdilər ki, biz çox xoşbəxtik ki, sabitliyin hökm sürdüyü bir ölkədə yaşayırıq.

29 saylı Səbail Dairə Seçki Komissiyasının 16 saylı məntəqə seçki komissiyasının sədri Fərhad İsmayılov bildirdi ki, məntəqənin 1412 seçicisi var.

Səsvermənin başlanmasından az vaxt keçməsinə baxmayaraq seçici fəallığı nəzərəçarpacaq dərəcədədir.

Yerli müşahidəçilər Aynənsə Paşayeva, Rəqiyə Kərimova və Məhəmməd Abdullah bildirdilər ki, heç bir qanun pozuntusu yoxdur, seçkilər tam şəffaf keçirilir.

Seçicilərdən Faiq Babayev, Sadıx İsmayılov və Bahar Qədiməliyeva bildirdilər ki, seçkilərin azad, şəffaf şəkildə keçirilməsi demokratiyaya doğru atılan növbəti ciddi addımdır. Azərbaycanda bütün azadlıqlar - söz, mətbuat, siyasi azadlıqlar, vicdan azadlığı təmin edilir. Burada bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi, sülh, mehribanlıq şəraitində yaşayırlar. Bu, bizim böyük üstünlüyümüzdür və dəyərimizdir. Bu, eyni zamanda, ölkə Prezidentinin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin bariz nümunəsidir.

Səsvermənin gedişini izləyən xarici müşahidəçilərdən Kamboca Xalq Partiyasının nümayəndələri Tekret Samraç və Kut Çandara bildirdilər ki, Azərbaycanda parlament seçkiləri çox sakit və qaydalara uyğun şəkildə keçirilir: "Müşahidələrimizə görə deyə bilərik ki, bu proses sərbəst şəkildə baş tutdu. Seçki mühiti çox yaxşıdır, insanlar da son dərəcə sərbəst şəkildə öz seçimlərini edirlər. Hər bir ölkənin öz seçki prinsipi və qaydaları var. Azərbaycanın seçki prosesi bizi tam qane edir."





29 saylı Səbail DSK-nın 28 saylı məntəqə seçki komissiyasının sədri Əli Mustafayev bildirdi ki, məntəqənin 1370 seçicisi var. Seçicilər fəal şəkildə səsvermədə iştirak edir, istədikləri namizədə səs verirlər.

Yerli mühşahidəçilərdən Sevda Rüstəmova, Arzu Sadıqova, Seyran İsmayılova, Gülnar Abdulova bildirdilər ki, heç bir qanun pozuntusu aşkar edilməyib. Seçicilər çox rahat və sərbəst şəkildə səs verirlər.

Xarici müşahidəçilərdən Kamboca Xalq Partiyasının nümayəndələri Tekret Samraç və Kut Çandara bildirdilər ki, onlar burada öz seçki hüquqlarını bilən çoxsaylı savadlı insan gördülər: "Belə hesab edirik ki, Azərbaycan ildən-ilə seçki praktikasını təkmilləşdirməklə bütün gənc demokratik ölkələr üçün demokratik seçkilərin keçirilməsi nümunəsinə çevriləcək. Hazırda apardığımız müşahidələr zamanı yaradılan şəraitin beynəlxalq normalara cavab verdiyinin şahidi olduq. Normal səsvermənin aparılması üçün bütün münbit şərait yaradılıb. Seçki məntəqələrində veb-kameraların quraşdırılması təqdirəlayiq haldır. Ümidvarıq ki, demokratik və şəffaf seçkilər yolunda Azərbaycanın atacağı hər bir addım onu daha da irəli aparacaq."

29 saylı Səbail DSK-nın 18 saylı məntəqə seçki komissiyasının sədri Tünzalə Mikayılova bildirdi ki, məntəqənin 1304 seçicisi var. Səhər tezdən seçicilər aktiv şəkildə səsvermədə iştirak edirlər.

Yerli müşahidəçilərdən Aida Əzizova, Sevda Ağayeva, Svetlana Nəcəfova bildirdilər ki, seçkilər qaydalara uyğun keçirilir. Heç bir qanun pozuntusuna rast gəlmədik. Seçicilər sərbəst şəkildə öz səslərini istədikləri namizədə verirlər.

Xarici müşahidəçilərdən Kamboca Xalq Partiyasının nümayəndələri Tekret Samraç və Kut Çandara bildirdilər ki, seçkilərin Azərbaycan xalqına, millətinə xeyirli olmasını arzulayırlar: "Azərbaycan demokratik dəyərlərin qorunması baxımından önəmli addımlar atır. Bizimlə yanaşı, məntəqədə digər müşahidəçilər də var idi və onlar da seçki prosesindən razılıqlarını bildirdilər. Gün ərzində xeyli seçki məntəqəsində olduq və heç bir pozuntu müşahidə etmədik. Ümumiyyətlə, deyə bilərik ki, seçki prosesi normal keçdi. Azərbaycanda seçkilərin şəffaflığı bəzi Avropa ölkələrində keçirilən seçki prosesindən daha üstündür. Ölkənizdə əsl seçki abhavası var və bu, seçicilərin fəallığının, seçkiyə olan maraqlarının göstəricisidir."











Seçicilərdən Məhəbbət Həsənzadə, Reyhan Cərullayeva, Billurə Rəcəbova, Valentina Mirzoyeva bildirdilər ki, xalqımız ölkədəki siyasi qüvvələr arasında azad və tərəddüdsüz, həm də doğru seçim edəcək qədər yetkin və müdrikdir. Bu müdrik seçim həm də obyektiv reallığa, ölkənin son illərdə keçdiyi tarixi inkişaf yolunun məntiqi yekununa, Azərbaycan vətəndaşının bugünkü yaşam tərzinə əsaslanır. Ona görə də biz bu gün yeni hədəflərə doğru addımlayırıq.

**Şəmsiyyə Əliqızı,**
**Şəfiqə Dadaşova,**
**Tural Əhmədov, (foto)**
***"İki sahil"***